

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 242 (21.652)

20 dekabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ulu öndər Heydər Əliyev həmrəyliyimizi təmin edən Azərbaycançılıq ideologiyasının banisidir

***Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin növbəti, 210-cu məşğələsi keçirilib.***

“Ulu öndər Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi” mövzusuna həsr olunmuş məşğələni giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq bildirib ki, hər hansı bir xalqın siyasi iradə və qətiyyət nümayiş etdirərək müstəqil dövlət yaratması onun milli birliyinin nəticəsidir. Rektor Azərbaycançılıq və milli həmrəylik ideyalarının təşəkkül tarixindən, əhəmiyyətindən danışaraq vurğulayıb ki, tarixin ən böyük azərbaycanlısı olan ümummilli lider Heydər Əliyev xalqımızın milli həmrəyliyə nail olmasında, dünyada Azərbaycan diasporunun formalaşmasında və təşkilatlanmasında misilsiz xidmətlər göstərib.



Universitetin tərbiyə işləri üzrə prorektoru, dosent Şamxal Məmmədov mövzu ilə bağlı məruzə edərək milli müstəqillik, milli həmrəylik uğrunda mübarizənin bünövrəsinin Naxçıvanda qoyulduğunu xatırladıb. Qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1991-ci il dekabrın 16-da 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması ilə bağlı xüsusi qərar imzalayıb.

Məruzədə ulu öndər Heydər Əliyevin milli dövlətçilik ənənələrinə söykənən siyasi xəttinin bu gün də uğurla davam etdirildiyi vurğulanıb, dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi, ümummilli liderin buradakı proqram xarakterli tarixi çıxışı, qarşıya qoyduğu mühüm vəzifələr barədə danışılıb. Bildirilib ki, bu gün dünyanın müxtəlif qitələrində yaşayan, fəaliyyət göstərən həmvətənlərimiz inkişaf etmiş, müstəqil, demokratik Azərbaycan dövlətinin qaygı və himayəsini daim öz üzərlərində hiss edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə yaradılan Diasporla İş üzrə Dövlət Komitəsinin, Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin, milli-mənəvi dəyərlərimizin dünyada təbliği istiqamətində gördüyü işlər bunu bir daha təsdiq edir. Azərbaycan diasporu isə milli maraqlarımızı, müstəqil Azərbaycan dövlətinin siyasətini bundan sonra da qətiyyətlə müdafiə etməlidir.

Saleh Məhərrəmov məşğələyə yekun vuraraq kollektivi qarşıdan gələn əlamətdar bayram münasibətilə təbrik edib, tələbə-gəncliyi öz milli mənsubiyyəti ilə daim qürur duyan, siyasi fəaliyyəti Azərbaycanın tərəqqisinə və təbliğinə həsr etmiş ümummilli liderin ideyaları ətrafında sıx birləşməyə çağırıb.

**Mehriban SULTAN**

## Naxçıvan Dövlət Tarix Muzeyinə sakinlər tərəfindən 47 eksponat təqdim olunub





*Dekabrın 19-da Nehrəm kənd sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Ordubad rayon Nüsnüs kənd sakini Oruc Əliyev, Kəngərli rayon sakini Tünzalə Ağayeva, Şərur rayonundakı Cəlilkənd sakini Tofiq Mirzəyev tərəfindən qədim mədəniyyətimizi və tariximizi əks etdirən 10 numizmatika nümunəsi, eləcə də mis kasa, şamdan, qılınc, süngü, dolça və sair olmaqla, 47 eksponat Naxçıvan Dövlət Tarix Muzeyinə təqdim edilib.*

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, 5 minillik tarixi olan, özündə qədim, antik və orta əsr şəhər mədəniyyətini əks etdirən, tarixin müxtəlif dövrlərində Atabəylər dövlətinin, Naxçıvan xanlığının paytaxtı olmuş qədim Naxçıvan şəhəri tarix və mədəniyyət abidələri ilə də zəngindir. Arxeoloji ekspedisiyalar zamanı tapılmış yüzlərlə gil qab, boyalı qablar, tunc heykəllər, əşyalar və bəzək nümunələri vaxtilə bu torpaqda müxtəlif mədəniyyətlərin mövcudluğunu göstərir. Nuh Peyğəmbərin qəbrinin burada olması, Gəmiqaya ərazisindəki məşhur qayaüstü rəsmlər Naxçıvanı bəşər sivilizasiyasının mühüm ocaqlarından biri kimi tanımağa imkan verir. Naxçıvan Muxtar Respublikasında 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir ki, burada xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 112 mindən çox maddi-mədəniyyət nümunəsi mühafizə olunaraq qorunub saxlanılır. Əgər müstəqillik illərinə qədər muxtar respublika ərazisində 13 muzey fəaliyyət göstərirdisə, müstəqillik dövrünə qədəm qoyduqdan sonra Naxçıvanın tarixini və görkəmli şəxsiyyətlərinin yaradıcılığını əks etdirən 16 muzey yaradılıb.

Vurğulanıb ki, bu gün muzeylərimizi ziyarət edənlərin sayı əhəmiyyətli dərəcədə artıb və muzey işçilərinin öhdəsinə daha böyük vəzifələr qoyulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən muxtar respublikanın nazirlik, komitə və təşkilatlarının kollektivləri mütəşəkkilliklə muzeylərimizi ziyarət edirlər. Bundan başqa, muxtar respublikada təhsil alan tələbələrin, gənclərin, həmçinin şagirdlərin, taksi sürücülərinin muzeylərə gedişi təmin edilib. Bu ilin 10 ayı ərzində muxtar respublikanın muzeylərini 273 minə yaxın insan ziyarət edib ki, bunların arasında Azərbaycanın digər regionlarından muxtar respublikamıza gələn qonaqlar, həm də xarici vətəndaşlar olub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi də diqqətdə saxlanılır və bu işdə muxtar respublika sakinləri fəallıq göstərirlər. Təkcə 2016-cı il ərzində muzeylərə 1500-ə yaxın yeni eksponat daxil olub. Xalqımızın tarixini, mədəniyyətini qorumaq, əlbəttə ki, hər birimizin borcudur.

Natəvan Qədimova maddi-mədəniyyət nümunələrini muzeyə təqdim etdiklərinə görə Akif Hacıyevə, Oruc Əliyevə, Tofiq Mirzəyevə və Tünzalə Ağayevaya təşəkkürünü bildirib, mədəniyyətimizin inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bütün mədəniyyət işçiləri adından minnətdarlıq edib.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov vətəndaşların bu təşəbbüsünü yüksək dəyərləndirib və bu eksponatların muzeyin zənginləşməsinə xidmət etdiyini bildirib.

Eksponatları muzeyə təqdim edənlərdən Akif Hacıyev, Oruc Əliyev və Tofiq Mirzəyev çıxış edərək bildiriblər ki, bu gün muxtar respublikada maddi-mədəni irsimizin qorunub yaşadılması və gələcək nəsillərə çatdırılması sahəsində davamlı tədbirlər həyata keçirilir. Muzeylərin eksponatlarla zənginləşdirilməsi, yeni muzeylərin yaradılması sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilən tədbirlər minnətdarlıqla qarşılanır. Hər bir vətəndaş mədəni irsimizin qorunub yaşadılması sahəsində həyata keçirilən tədbirlərə öz töhfəsini verməyə çalışır. Vətəndaşlar tərəfindən qədim məişət əşyalarının muzeylərə təqdim edilməsi də bu mənada mühüm əhəmiyyətə malikdir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin qorunub yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Muxtar respublikada maddi-mədəniyyət nümunələrinin toplanmasında bundan sonra da insanlarımız fəal iştirak edəcəklər.

**“Şərq qapısı”**

***Sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə hər bir rayonun istehsal potensialından səmərəli istifadə etməklə sahibkarlığın inkişaf etdirilməsi mühüm şərtdir.***

## Yeni istehsal müəssisələrinin yaradılması davam etdirilir



Məlum olduğu kimi, sahibkarlığın, özəl sektorun inkişafına normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, infrastrukturu yeniləşdirmək, sosial məsələlərin həllinə nail olmaq mümkün deyil. Bu məqsədlə muxtar respublikada iqtisadi sahədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini məhz sahibkarlığın inkişafı təşkil edir.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, yaxud mövcud olanların fəaliyyəti bərpa edilir və ya genişləndirilir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, istehsal potensialının gücləndirilməsi istiqamətində 2016-cı ilin ötən dövrü ərzində muxtar respublikada avtomobil şinlərinin üzlənməsi, mebel, qapı-pəncərə, dəri emalı sahəsinin fəaliyyətinin genişləndirilməsi, çörək (lavaş), unlu-qənnadı məmulatları, eyni zamanda istixanalar, soyuducu anbarlar, heyvandarlıq, quşçuluq, balıqçılıq təsərrüfatları və xidmət sahələri olmaqla, 28 sahənin yaradılması başa çatdırılıb.

Müxtəlif ölçü və formada qızıl-gümüş zinət əşyaları, medal və döş nişanları, qaynaq çubuğu (elektrod), qarışıq yem, unlu-qənnadı, meyvə şirələri, mürəbbə və turşu, xama istehsalı, həmçinin quşçuluq, arıçılıq təsərrüfatları və xidmət sahələri olmaqla, 12 sahənin yaradılması istiqamətində isə işlər davam etdirilməkdədir.

2000-ci ildən ötən müddət ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən 1219 layihənin maliyyələşdirilməsinə 134 milyon 204 min manatdan artıq həcmdə kredit verilib, bu tədbirlərin davamı olaraq 2016-cı ilin ötən dövrü ərzində 21 müxtəlif təyinatlı layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 15 milyon 69 min manat dövlət maliyyə dəstəyi göstərilib.

Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 366 növdə məhsul istehsal olunur. Bu məhsulların 120 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın yerli imkanlar hesabına ödənilməsi təmin edilib.

**Xəbərlər şöbəsi**

İstehsal müəssisələri

## "Şirvanşahlar" Ayaqqabı Fabrikinin məhsulları paytaxt Bakı bazarına çıxarılıb





– Ay oğul, bu uşağa məktəbli ayaqqabısı ver. Özü də Şirvanşahların ayaqqabısı olsun.

Satıcı:

– Dayı, Şirvanşahın uşaqlıq ayaqqabısını mən hardan tapım? O kişi neçə illər bundan əvvəl dünyasını dəyişib, – deyib xeyli güldü:

– Oğul, mən Naxçıvanda fəaliyyət göstərən "Şirvanşahlar" Ayaqqabı Fabrikinin istehsal etdiyi məktəbli ayaqqabılarını deyirəm.

– O fabrikin yuxarı yaşlılar üçün ayaqqabı istehsal etdiyini bilirəm. Ancaq məktəbli ayaqqabıları istehsal etdiyindən xəbərim yoxdur.

Söhbətə qulaq asan, qonşu dükanda əyləşən satıcı:

– Ağsaqqal düz deyir. "Şirvanşahlar" Ayaqqabı Fabriki bu il məktəbli ayaqqabılarının istehsalına başlayıb. Mən də nəvəm üçün aldım. Çox gözəl, dəridən hazırlanmış rahat ayaqqabılardır. Məktəbli formasını tamamlayır. Həmin ayaqqabıları almaq üçün gərək ayaqqabı fabrikinə gedəsən. Sonra bir az fikirləşib:

– Hə, yadıma düşdü, fabrik uzaqdadır. Elə Cahan Ticarət Mərkəzindən çıxıb yolu keçin. "Gənclər şəhərciyi" adlanan ərazidə ucaldılan çoxmərtəbəli binaların köhnə 9 mərtəbələrə tərəf hissəsində fabrikin firma mağazası fəaliyyətə başlayıb. Oradan nə cür ayaqqabı istəsəniz tapa bilərsiniz. Özü də münasib qiymətə.

Ağsaqqal razılıq edib nəvəsi ilə birlikdə qapıya tərəf yönəldi.

– Tələsməyin. Mən də o mağazaya gedirəm, – deyib onlara bələdçilik etdim.

Yolu keçib bir-birindən yaraşıqlı binaları seyr edən ağsaqqal:

– Şükür. Bu günləri də gördük. Təkcə şəhərimiz yox, kəndlərimiz də günü-gündən dəyişir, abadlaşır. İnsanların rahatlığı üçün hər cür şərait yaradılır. Yay tətili zamanı Bakıda yaşayan nəvələrim də gəlmişdi. Kəndimizdə yaradılan şəraiti görüb:

– Baba, kəndimiz lap şəhərə dönüb, – dedilər.

"Şirvanşahlar" Ayaqqabı Fabrikinin firma mağazasına yaxınlaşdıq. Mağazaya daxil olanda gözlərimə inanmadım. Müxtəlif modeldə, müxtəlif çeşiddə ayaqqabılar, necə deyərlər, adamın üzünə gülürdü. Elə nəvəsi ilə mağazaya gələn ağsaqqal da təəccübləndi:

– Bəs deyirdilər Naxçıvanda ayaqqabı istehsal etmək müşkül məsələdir.

– Təşəbbüskarlıq və dövlət qayğısı olan yerdə müşkül məsələ yoxdur. Sadəcə, bu qayğıdan lazımınca bəhrələnmək lazımdır, – deyən "Şirvanşahlar" Ayaqqabı Fabrikinin direktoru Namiq Əliyevlə salamlaşıb, – mübarəkdir, xeyirli-uğurlu olsun, – dedim.

– Ağsaqqal, nəvənin hansı ayaqqabı xoşuna gəlir?

– Bax o yuxarıdakı 3 ayaqqabını ver baxaq. Görək hansını bəyənir.

Uşağın sevincinin həddi-hüdudu yox idi.

– Baba, bu, gözəldir. Ayağıma da rahat olur. Məktəbli formama da uyğundur, – deyən uşaq mağazada o baş-bu başa yürüyüb rahatlığını da yoxladı.

Ağsaqqal pulunu ödəyib xeyli fikirləşdi:

– Oğul, bu cür ayaqqabını niyə bazar qiymətindən ucuz satırsan? Birdən dəri ayaqqabı olmaz ha? Keçən il ayaqqabı almışıq, yağış yağan kimi uşağın ayağına su dolur.

– Arxayın olun. Bu, yerli məhsuldur. Təmiz dəridən hazırlanıb. Ayaqqabıda heç bir problem olmayacaq.

– Bala, sən satıcısan, haradan bilirsən ayaqqabı hansı materialdan hazırlanıb?

– Mən satıcı deyiləm. Elə bu ayaqqabıları tikənəm. Fabrikin direktoruyam. Adım da Namiqdir.

– Ay oğul, 70 yaşım var. Direktorun ayaqqabı tikməyini, müştəriyə ayaqqabı satmağını birinci dəfədir, görürəm.

– Borcumuzdur. İnşallah bundan sonra tez-tez görüşərik, – deyən Namiq Əliyev ağsaqqalı qapıyadək yola saldı.

– Hər modeldə ayaqqabılarınız var?

– Əlbəttə. Zamanı boşa vermədik. Çalışdıq. Əməyimizin bəhrəsini görürük, – deyib fabrikə getməyi məsləhət gördü.

Fabrikdə ahəngdar iş prosesi hökm sürürdü. Kimisi müxtəlif modellərə uyğun dərilər kəsir, kimisi kəsilmiş dəriləri tikir, kimisi də həmin hissələri qəliblərə çəkib, altlıqların yapışdırılması üçün qızdırıcıya qoyurdu.

Elə bu vaxt işçilərdən biri Namiq Əliyevə yaxınlaşıb əlindəki qəlibi göstərərək, – Dəriləri bu qəlibə çəkim? – deyə soruşdu.

– Xeyr. Bu başqa modelin qəlibidir. Bax bu qəlibə çəkəcəksən, – deyib stolun üstündəki digər qəlibləri göstərdi.

– Gəncdir. Öyrənir. Bu işin ustası olması üçün zaman tələb olunur. Elə biz də bu sənəti belə öyrənmişik. 1994-cü ildə "Şirvanşahlar" Xarici İqtisadi Əlaqələr Assosiasiyasını yaradıb ticarətlə məşğul olurduq. Lakin hələ gənc yaşlarımdan ayaqqabı istehsalına marağım olduğundan 2000-ci ildə kiçik bir sexdə ayaqqabı istehsalına başladıq. Satışa çıxarılan məhsullara tələbat artdı. Daha çox və keyfiyyətli məhsul istehsal etmək üçün ayaqqabı fabrikinin inşa olunması, müasir texnoloji avadanlıqların alınıb quraşdırılması zərurəti yarandı. Digər sahibkarlar kimi biz də dövlət qayğısından bəhrələndik. Yeni istehsal sahəsi qurmaq üçün biznes-plan hazırlayıb Sahibkarlığa Kömək Fonduna təqdim etdik. 2008-ci ilin mart ayında Sahibkarlığa Kömək Fondundan 70 min manat dövlət maliyyə dəstəyi göstərildi. Son illər Naxçıvan şəhərində yaradılan sənaye şəhərciyində 750 kvadratmetr torpaq sahəsi ayrıldı ki, burada da müəssisə üçün 2 mərtəbəli bina inşa olundu. Binada ayrı-ayrı iş otaqları, 5 istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana və digər yardımçı otaqlar istifadəyə verilib. Müasir texnoloji avadanlıqların alınması üçün 2008-ci ildə Sahibkarlığa Kömək Fondundan 44 min manat güzəştli kredit ayrılıb. Bu vəsaitlə Almaniya, Macarıstan, Yaponiya, İran və Türkiyə mənşəli 16 adda müasir texnoloji avadanlıq alınıb gətirilərək quraşdırılıb. Bir sözlə, müəssisədə yüksəkkeyfiyyətli məhsul istehsal etmək üçün hər cür şərait yaradılıb.

Yeni istehsal sahəsinin yaradılması məqsədilə 2009-cu ilin mart ayında Sahibkarlığa Kömək Fondundan əlavə olaraq 60 min manat dövlət maliyyə dəstəyi göstərildiyini bildirən müsahibim onu da qeyd etdi ki, Türkiyənin "Tekər" firmasının istehsalı olan ayaqqabı altlıqları istehsal edən avadanlıq, köməkçi dəzgahlar, müxtəlifölçülü və müxtəlif modelli qəliblər alınıb gətirilərək quraşdırılıb. Gündəlik istehsal gücü 400-500 cüt olan ayaqqabı altlıqları istehsalı sexi 2009-cu ilin may ayından fəaliyyətə başlayıb. Ümumilikdə, quruculuq tədbirlərinə və texnoloji avadanlıqların alınıb quraşdırılmasına 380 min manat vəsait sərf olunub ki, bunun da 206 min manatı daxili imkanlar hesabına ödənilib. Gündəlik istehsal gücü 350-400 cüt ayaqqabı olan müəssisədə tələbata uyğun olaraq müxtəlif çeşidlərdə ayaqqabı istehsal edilir. Hazırda Naxçıvan Muxtar Respublikası Daxili İşlər, Fövqəladə Hallar və Ədliyyə nazirliklərinin, "Gəmiqaya", "Cahan" və "Dizayn" Holdinq Şirkətlər ittifaqlarının, Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin sifarişlərinə uyğun olaraq müxtəlif çeşiddə ayaqqabılar istehsal olunur. Ayaqqabı altlıqları istehsalı üçün lazım olan material xammal şəklində, digər 15 adda materiallar isə hazır məhsul şəklində Türkiyə Respublikasından idxal olunur. Təbii ki, müəssisənin maliyyə imkanları genişləndikcə, dəridən hazırlanan digər məhsulların da istehsal olunması və əlavə işçi qüvvəsinin cəlb edilməsi planlaşdırılır.

İstehsal prosesinin təkmilləşdirilməsi və yeni modellərdə ayaqqabı istehsalı da diqqət mərkəzində saxlanılıb. Cari ildə ali, orta ixtisas və ümumtəhsil məktəblərinin formalarına uyğun ayaqqabı istehsal etmək üçün Türkiyə Respublikasında fəaliyyət göstərən bu sahə üzrə qabaqcıl təcrübəyə malik ayaqqabı istehsalçıları ilə əlaqələr qurulub, müxtəlif yaş qruplarına uyğun müxtəlif ölçülərdə və modellərdə qəliblər alınaraq yeni modellərdə məktəbli ayaqqabılarının istehsalına başlanılıb. İstehsal olunan müxtəlif çeşiddə qadın və kişi ayaqqabılarının topdansatışı müəssisədə, pərakəndə satışı isə firma mağazada həyata keçirilir.

Daxili bazarı yüksəkkeyfiyyətli məhsullarla təmin etmək əzmi ilə çalışan kollektiv cari ili uğurlu göstəricilərlə başa vurmaq üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir. Müəssisədə istehsal olunan ayaqqabıların ölkəmizin digər regionlarında satışa çıxarılması və xarici bazarda tanıdılması istiqamətində işlər davam etdirilir. Paytaxt Bakı şəhərində və xarici ölkələrdə keçirilən biznes forumlarda və sərgilərdə yaxından iştirak edilir. Bu sahə üzrə qabaqcıl təcrübəyə malik ayrı-ayrı şirkət və firmalarla əlaqələr qurulur ki, bu da yerli məhsulların ölkəmizin digər regionlarına və xarici bazara çıxarılmasına əlverişli şərait yaradır. Artıq "Şirvanşahlar" Ayaqqabı Fabrikinin istehsal etdiyi ayaqqabı altlıqları sifarişə uyğun olaraq Bakı şəhərində fəaliyyət göstərən ayaqqabı istehsalı müəssisələrinə göndərilir.

Namiq Əliyevin söhbətinə qulaq asan zaman onun ip çəkməkdən düyün bağlamış barmaqları diqqətimdən yayınmadı.

– Siz də ayaqqabı tikirsiniz?

– Əlbəttə, bu müəssisədə çalışan işçilərin hamısı mənim yetirmələrimdir.

Öz işindən zövq alan, zəhməti ilə yaşayan, sənəti yaşatmağı bacaran sənətkar sahibkara işlərində uğurlar arzulayıb oradan ayrıldım.

✍ **Kərəm HƏSƏNOV**

## Şahbuzda heyvandarlığın inkişafı üçün yaxşı imkanlar vardır

***Təkcə Naxçıvan Muxtar Respublikasının deyil, eləcə də ölkəmizin ucqar dağlıq ərazilərindən biri olan Şahbuz rayonu özünün füsunkar landşaft və təbiət gözəllikləri, mineral suları, minbir dərdin dərmanı olan şəfalı bitkiləri və ev təsərrüfatlarında istehsal olunan yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları ilə yaxşı tanınır. Bu baxımdan yeni iqtisadi şəraitdə, xüsusən kiçik sahibkarlığın inkişafına diqqətin artdığı son dövrlərdə Şahbuzda mövcud olan yerli resurslar hesabına aqrar sahənin genişləndirilməsi, burada heyvandarlığın daha intensiv inkişaf etdirilməsi maraq kəsb edir.***

Heyvandarlıq bir təsərrüfat sahəsi kimi hazırda Şahbuz rayonunda əsas məşğuliyyət növlərindən biridir. Tarixən də bu bölgənin insanları bu sahədə yaxşı təcrübə əldə ediblər. Məsələn, Kükü kəndində bir vaxtlar heç bir baytarlıq və ya aqronomluq təhsili olmayan insanların məhz nəsildən-nəslə ötürülən təcrübi biliklər sayəsində öz təsərrüfatlarını necə idarə etməsi, xəstəliklərə qarşı mal-qaranı necə qoruması, əlverişsiz mövsümlərdə əkin-biçini necə keçirmələri haqda söhbətlər indi də yaddaşlarda yaşayır. Amma dövr dəyişilib, hər yerdə olduğu kimi, kənd təsərrüfatının bu mühüm sahəsində də elmin, yüksək texnoloji nailiyyətlərin və dünya təcrübəsinin tətbiqi öz əhəmiyyətini göstərir. Çünki bu sahədə istehsal olunan məhsulun ekoloji təmizliyini qorumaqla bərabər, həm də əl əməyinin yüngülləşdirilməsi ilə məhsuldarlığın artırılması və etibarlı satış bazarlarının təmin olunması da günün tələbləri arasındadır.

Əvvəlcə rəqəmlərə müraciət etsək, cari ilin ilk 10 ayının nəticələrinə əsasən, Şahbuzda iribuynuzlu mal-qaranın 23 min 142 baş, xırdabuynuzlu heyvanların isə 125 min başa yaxın olduğunu deyə bilərik. 25 minə yaxın əhalisi və 6 mindən artıq təsərrüfatı olan bir rayonda heyvandarlıq təsərrüfatının bu qədər səviyyəyə çatması, şübhəsiz, uğur sayıla bilər. Nəzərə almaq lazımdır ki, Şahbuzda ərsəyə gətirilmiş ət və süd məhsulları dadlı və keyfiyyətli olduğu qədər, eyni zamanda bu rayonun təbii-iqlim şəraiti və digər amillərdən asılı olaraq bir o qədər də çətin zəhmətlə başa gələn nemətlərdir. Təkcə iribuynuzlu mal-qaranın hardasa ilin 5 ayının tövlə şəraitində bəslənməsi burada yaşayan kəndlinin əziyyətini, məhsulun maya dəyərini artırır. Şübhəsiz, Şahbuzun yüksək dağlıq iqlimi və sərt keçən qış şəraitində bunun başqa alternativi də yoxdur. Ancaq zəhmətkeş Şahbuz kəndlisi dövlətin də dəstəyindən bəhrələnərək öz tələbatından artıq səviyyədə kənd təsərrüfatı məhsulları istehsal edir, güzəranını yaxşılaşdırır. Rayonda olarkən Kükü və Gömür kəndlərində iribuynuzlu, Nursu, Keçili, Güney Qışlaqda isə xırdabuynuzlu heyvanların daha çox olduğunu öyrəndik.

Şahbuzda iri təsərrüfat sahibləri vardır. Keçili kəndindəki fermerlərdən 15 baş iribuynuzlu və 110 baş xırdabuynuzlu heyvanı olan Anar Məmmədovu, 30 baş mal-qarası olan Qadir Səfərovu, 150 baş xırdabuynuzlu heyvan saxlayan Sabir Elyazovu hər kəs tanıyır. Bu adamlar torpağa bağlandıqca özləri üçün yaxşı güzəran da yaradıblar. Hər birinin lüks minik avtomobilləri, yük maşınları, otbiçəni və digər texnikası vardır. Təkcə Keçilidə 50-dən artıq torpaq mülkiyyətçisi otbiçən maşınlardan istifadə edir. Düşünürsən ki, bir vaxtlar yay girəndən məktəblər açılanadək qol gücünə ot biçib tədarük olunma dövrü artıq arxada qalıb. İndi Şahbuz kəndlisi ot tədarükünə bir həftədən artıq vaxt sərf etmir. Beləliklə, şəhərdə olduğu kimi, kəndlinin də həyat səviyyəsi yüksəlib.

Eyni fikirləri rayonun Kükü, Gömür, Biçənək və digər kəndlərindəki iri təsərrüfat sahibləri haqqında da demək olar. Belə ki, gömürlü fermerlərdən Məmmədəli Ağamalıyev və Həsən Taroyev hər biri 20 başdan artıq iribuynuzlu mal-qara saxlayır. Rayonun böyük kəndlərindən Küküdə də xeyli sayda mal-heyvan saxlayan təsərrüfatçılar vardır. Burada Fariz Dünyamalıyevin 15 başdan çox iribuynuzlu mal-qarası, Ramazan Səfərovun isə 100 başdan çox xırdabuynuzlu heyvanı vardır. Bu torpaq mülkiyyətçiləri də təsərrüfatı ilə özlərinə yaxşı güzəran qurub, fərdi avtomobil və kənd təsərrüfatı texnikası əldə ediblər. Kükülü İslam Mustafayev isə fərdi təsərrüfatında bəslədiyi 30 başdan artıq cins keçi ilə ailəsinin bütün ehtiyaclarını tam ödəyir.

Şahbuzun müxtəlif kəndlərində belə işgüzar torpaq mülkiyyətçiləri çoxdur. Ancaq təcrübə göstərir ki, kənd təsərrüfatının inkişafı təkcə bitkiçilik və heyvandarlıq üzrə xammalın istehsalı ilə bitmir. Xüsusən heyvandarlıqda ətlik və südlük istiqamətində heyvanların baş sayının artırılması ilə yanaşı, cins tərkibinin də yaxşılaşdırılması, kəndlinin istehsal etdiyi məhsulun süfrələrə hazır şəkildə gətirilməsinə imkan verən yerli emal sənayesinin inkişafı əsas şərtlərdəndir. Dövlətin xüsusən Şahbuz kimi ucqar dağ rayonlarında ev təsərrüfatlarının inkişafına maraqlı olduğu, hər cür kredit və metodoloji dəstək verdiyi bir dövrdə bu sahə üzrə kiçik sahibkarlığı inkişaf etdirmək çox asandır. Şahbuzda ət və süd emalı müəssisəsinin olmaması bu sahə üzrə işə başlayacaq sahibkarlar üçün geniş bazar imkanları vəd edir. Təkcə Naxçıvan şəhərinin deyil, elə Şahbuz kəndlərinin ərzaq mağazalarındakı idxal mənşəli müxtəlif heyvandarlıq məhsullarını Şahbuzda hazırlanıb qablaşdırılmış qovurma, kərə yağı, süd, pendir, kəsmik, qurut kimi milli mətbəximizdə həmişə olmuş nemətlərlə əvəz etməyin vaxtı gəlib çatıb.

Heyvandarlıqda kəmiyyət göstəricisindən keyfiyyət göstəricisinə keçilməsi üçün bəslənilən heyvanların cins tərkibinin yaxşılaşdırılması yüksək məhsuldarlığa imkan verən amillərdəndir. Düzdür, indi Şahbuzda da bu sahədə mühüm işlər görülür. İlkin nəticələr də əldə olunub. Belə ki, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə bu il 172 süni mayalandırma aparılıb, 62 baş sağlam buzov alınıb. Bu məsələnin nə qədər vacib olduğunu isə yenə rəqəmlərin təhlili ilə demək olar. Belə ki, cari ilin ilk 10 ayının nəticələrinə əsasən, Şahbuzda 13 min 600 tona yaxın süd istehsal olunub. Bu rəqəmin sağmal inəklərin sayına olan nisbəti isə, təqribən, 1100 litr təşkil edir. Halbuki fikirlərini öyrəndiyimiz kənd təsərrüfatı mütəxəssislərinin sözlərinə görə, təsərrüfatlarda cins inək bəsləməklə təkcə süd istehsalında bundan iki-üç dəfədən çox məhsul əldə etmək olardı.

Şahbuzlu fermerlər daim dövlətin qayğısını hiss ediblər. Bu gün də torpağa bağlı hər bir şahbuzlu yaradılmış imkanlardan maksimum istifadə etməyə çalışır. Belə imkanlar isə qarşıdakı dövrdə daha çox olacaq.

✍ **Əli CABBAROV**

# Pensiya təyinatı və ödənişi müasir tələblərə uyğun qurulub

– Əhməd kişi, neçə müddətdir fikir verirəm, ora-bura çox qaçırsan. Xeyirdir inşallah.

– Pensiya yaşım çatana qədər işləmişəm. İndi də pensiyaya çıxmaq istəyirəm. Deyirlər, sənədləri topla, gətir, pensiyanı təyin edək. Mən də o idarə sənin, bu idarə mənim, gəzməkdən ayaqlarımın altı qabar olub. Hərdən bir sənəd çatmır. Pensiya işim düzəlmir ki, düzəlmir.

– İnşallah düzələr, – deyib Əhməd kişiyə səbirli olmağı məsləhət gördüm ki, Nəriman dayı yaxınlaşdı. Salamsız-kəlamsız:

– Müəllim, o pensiya paylayanı görmədin? Deyirlər, bu gün pensiyaları gətirəcək. Dörd aydır, pensiyalarımızı vermirlər. Belə də iş olar? – deyib sual dolu nəzərlərlə üzümə baxdı. Sonra da verdiyi suala özü cavab verdi: – Sahibsiz ölkədə, özbaşınalıq olan yerdə hər şey olar, – dedi.

– Ay rəhmətliyin oğlu, elə biz də siz gündəyik də. Üç aydır, əməkhaqqımızı ala bilmirik. Atalar yaxşı deyib: "Pis günün ömrü az olar". Səbir edək. Yaqin ki, ölkənin sahibi gələr. Cavanına da, qocasına da bir gün ağlayar.

1989-cu ildə yaşadığım binanın sakinləri ilə etdiyim bu söhbətin üstündən 27 il keçir. Zaman öz işini gördü. Ölkənin SAHİBİ gəldi. Digər sahələrdə olduğu kimi, sığorta-pensiya sistemində də uğurlu islahatlar həyata keçirildi. İndi nə pensiya təyinatı üçün aylarla vaxt itirib sənəd toplamağa, nə də təyin olunmuş pensiyanı aylarla gözləməyə ehtiyac yoxdur. Əmək pensiyaları avtomatlaşdırılmış qaydada çox qısa zaman ərzində təyin olunur. Təyin olunmuş pensiyalar isə plastik kartlarla bankomatlar vasitəsilə vaxtında ödənilir. Artıq pensiya paylayanı axtarmağa da ehtiyac qalmayıb. Pensiya bankomatlarda, "açarı" da cibində, müəyyən olunmuş vaxtda "aç", götür. Amma... Elə buradaca oxucu fikirləşəcək ki, yenə nə amma? Əziz oxucu, bu amma elə sizin özünüzdən asılıdır. Yəni bankomatdan istədiyin qədər pul yox, işlədiyin zaman ödədiyin məbləğ qədər pul götürə bilərsən. Bəs bu mexanizm necə qurulub? Sosial ədalət prinsipi necə bərpa olunub? Pensiya təyinatı necə aparılır? Bu və ya bu kimi suallara aydınlıq gətirmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun aparat rəhbəri Vüsal Sevdimalıyevlə görüşüb həmsöhbət olduq:

*– Vüsal müəllim, əvvəlcə sığorta-pensiya sistemində fərdi uçotla bağlı məlumat verərdiniz.*

– Fərdi uçot əmək pensiyası və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılmasıdır. Fərdi uçotun yaradılmasında əsas məqsəd ödənilən məcburi dövlət sosial sığorta haqları ilə pensiya məbləği arasında birbaşa qarşılıqlı əlaqənin yaradılmasıdır.

Fərdi uçot sisteminin əsas məqsədlərindən biri də sığortaolunanların gələcəkdə alacaqları pensiyaların hansı məbləğdə olacağını qabaqcadan müəyyənləşdirmələrinə şərait yaratmaqdır. Fərdi uçotla bağlı yaradılmış bazadan istifadə etməklə sosial sığorta iştirakçıları haqqında dəqiq məlumat almaq mümkündür. Bu da, öz növbəsində, sığortaolunanın pensiyaya çıxacağı haqqında dəqiq proqnozların verilməsinə, sığortaolunanlar və sığortaedənlər tərəfindən ödənilməli və ödənilmiş olan məcburi dövlət sosial sığorta haqlarına daha asan və çox vaxt sərf etmədən nəzarət etməyə imkan verir.

*– Fərdi uçotun təşkili ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda hansı işlər görülüb?*

– Muxtar respublika ərazisində fəaliyyət göstərən hər bir işləyən vətəndaş Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu orqanlarında sığortaolunanların qeydiyyatına dair Q3 ərizə forması doldurararaq qeydiyyata alınmış, hər bir sığortaolunana sosial sığorta nömrəsi verilməklə fərdi şəxsi hesab açılmış və sosial sığorta şəhadətnaməsi ilə təmin edilmişdir. Hazırda muxtar respublika üzrə fərdi uçot sistemində qeydiyyata alınmış sığortaolunanların sayı 163 min 840 nəfərdən çoxdur.

*– Hər bir işləyən pensiya kapitalı toplamaq və qanunvericilikdə nəzərdə tutulmuş müavinətləri almaq üçün Dövlət Sosial Müdafiə Fonduna nə qədər məcburi dövlət sosial sığortahaqqı ödəməlidir?*

– "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununun 14-cü maddəsinə müvafiq olaraq məcburi dövlət sosial sığortasında sığortahaqqı əmək ödənişinə (gəlirə) nisbətdə faizlə müəyyən edilir və sığortaedənin (olunanın) vəsaitləri hesabına ödənilir.

Seçkili orqanlar və mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxs statusunda olan müəssisə, idarə və təşkilatlar, onların filial və nümayəndəlikləri, habelə başqasını sosial sığorta edən şəxslər hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortaya cəlb olunan digər gəlirlərinin 22 faizi miqdarında, əmək müqaviləsi (kontraktı) ilə işləyənlər hesablanmış əməkhaqqının 3 faizi miqdarında məcburi dövlət sosial sığortahaqqı ödəyirlər.

Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslər torpaq sahəsinin hər hektarına görə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının, yəni 105 manatın torpaqların 1-ci keyfiyyət qrupu üzrə 12 faizi (12 manat 60 qəpik), torpaqların 2-ci keyfiyyət qrupu üzrə 8 faizi (8 manat 40 qəpik), torpaqların 3-cü keyfiyyət qrupu üzrə 4 faizi (4 manat 20 qəpik), torpaqların 4-cü keyfiyyət qrupu üzrə 2 faizi (2 manat 10 qəpik) miqdarında məcburi dövlət sosial sığortahaqqı ödəyirlər.

Ticarət və tikinti sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər minimum aylıq əməkhaqqının 50 faizinin Naxçıvan şəhərində 80 faizi (42 manat), rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi (31 manat 50 qəpik), kənd yerlərində isə 50 faizi (26 manat 25 qəpik) miqdarında, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə minimum aylıq əməkhaqqının 20 faizinin Naxçıvan şəhərində 80 faizi (16 manat 80 qəpik), rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi (12 manat 60 qəpik), kənd yerlərində isə 50 faizi (10 manat 50 qəpik) miqdarında məcburi dövlət sosial sığortahaqqı ödəyirlər.

*– Məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinin mahiyyəti nədən ibarətdir?*

– Ümumiyyətlə, bütün sığortaolunanlar məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinə maraqlı olmalıdırlar. Çünki gələcəkdə əmək pensiyası hüququnun yaranması, eləcə də məcburi dövlət sosial sığortası üzrə ödəmələrdən yararlanmaq üçün məcburi dövlət sosial sığortahaqqının ödənilməsi əsas şərtdir. Məcburi dövlət sosial sığorta haqlarından yayınan şəxslər gələcəkdə əmək pensiyası hüququndan və digər sığorta hadisələri zamanı sığorta ödəmələrindən məhrum olacaqlar. Ödənilmiş məcburi dövlət sosial sığorta haqları Dövlət Sosial Müdafiə Fondunda fərdi uçot sistemində açılmış fərdi şəxsi hesablara işlənilir ki, gələcəkdə pensiya təyinatı aparıldıqda həmin fərdi şəxsi hesabda olan məlumatlar əsas götürüləcəkdir.

Fondun fərdi uçot sistemində qeydiyyatda olan hər bir sığortaolunan özü üçün məcburi dövlət sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək imkanına malikdir. Belə ki, istənilən şəxs Dövlət Sosial Müdafiə Fondunun rəsmi internet səhifəsindən, "Sığortaolunanlara məlumatların verilməsi" adlı elektron xidmətdən istifadə etməklə hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları, həmçinin illər üzrə öz pensiya kapitalını izləyə, "Pensiya kalkulyatoru" elektron xidməti vasitəsilə öz pensiyasını hesablaya bilər.

*– Vətəndaşlara pensiyalar necə təyin olunur? Hazırda sığortaolunanlar neçə yaşında pensiya hüququ qazanırlar?*

– Vətəndaşlara pensiyalar 1 yanvar 2006-cı il tarixdən etibarən qüvvəyə minmiş "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən təyin edilir. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən, əmək pensiyasının 3 növü var: yaşa görə, əlilliyə görə və ailə başçısını itirməyə görə əmək pensiyası.

Yaşa və əlilliyə görə əmək pensiyası baza hissəsindən, sığorta hissəsindən və yığım hissəsindən ibarətdir. Ailə başçısını itirməyə görə əmək pensiyası isə baza və sığorta hissəsindən ibarətdir.

Azərbaycan Respublikasının qanunları ilə müxtəlif pensiya hüququ olan şəxslərə öz arzuları ilə yalnız bir pensiya təyin edilə bilər.

Bu qanunun 7-ci maddəsində nəzərdə tutulmuş qaydada, yəni 63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların azı 12 il sığorta stajı olduqda yaşa görə əmək pensiyası hüququ vardır.

Qanunun 8-ci maddəsində çoxuşaqlı qadınların, sağlamlıq imkanları məhdud uşağı olan anaların, uşaqlarını təkbaşına böyüdən ataların və qəyyumların yaşa görə əmək pensiyasının təyin edilməsi şərtləri nəzərdə tutulmuşdur. Belə ki, beş və daha çox uşağı olan, onları səkkiz yaşınadək tərbiyə etmiş və azı 10 il sığorta stajı olan qadınların bu qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən olunmuş yaş həddi hər uşağa görə 1 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır. Sağlamlıq imkanları məhdud uşağını səkkiz yaşınadək tərbiyə etmiş və azı 10 il sığorta stajı olan anaların bu qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən olunmuş yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır. Ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı növbəti nikah bağlamadan, təkbaşına səkkiz yaşınadək böyüdən ataların, habelə 5 və daha çox uşağı övladlığa götürüb təkbaşına səkkiz yaşınadək böyüdən ataların, həmçinin 5 və daha çox uşağı səkkiz yaşınadək böyüdən qəyyum kişilərin azı 10 il sığorta stajı olduqda bu qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən olunmuş yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır.

*– Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən avtomatlaşdırılmış qaydada pensiya təyinatı necə həyata keçirilir?*

– Muxtar respublika ərazisində yaşayan və pensiya yaşına çatmış hər bir vətəndaş heç bir sənəd toplamadan, vaxt itirmədən Dövlət Sosial Müdafiə Fondunun Pensiya şöbəsində yaradılmış avtomatlaşdırılmış pensiya təyinatı xidmətinə zəng etməklə real vaxt rejimində dərhal əmək pensiyası təyinatı hüququnu reallaşdırmaq imkanına malikdir.

Avtomatlaşdırılmış pensiya təyinatının aparılması üçün (+99436) 550-59-79 nömrəsinə zəng edərək müraciət edən şəxsin yalnız şəxsiyyət vəsiqəsinin seriya nömrəsini bildirməsi kifayətdir. Bu məlumat dərhal Dövlət Sosial Müdafiə Fondunda yaradılmış xüsusi proqram təminatına daxil edilir və həmin göstəricilərin sistemdə düzgünlüyü təsdiqləndiyi halda fondun fərdi məlumatlar bazasına inteqrə ediləcək vətəndaşın 01.01.2006-cı il tarixədək olan iş stajı və 01.01.2006-cı il tarixdən ödədiyi məcburi dövlət sosial sığorta haqlarından avtomatlaşdırılmış qaydada əmək pensiyasının təyinatı aparılır. Elə həmin vaxt vətəndaşa onun təyin olunmuş əmək pensiyasının məbləği və öz plastik bankomat kartını ala biləcəyi müvəkkil bankın filialının ünvanı bildirilir. Eyni zamanda vətəndaşın ünvanına bununla bağlı xüsusi rəsmi bildiriş də göndərilir.

Hazırda ilkin mərhələdə avtomatlaşdırılmış pensiya təyinatı yaşa görə əmək pensiya hüququ yaranmış əmək pensiyaçılarına tətbiq edilir. Gələcəkdə avtomatlaşdırılmış pensiya təyinatı əlilliyə görə və ailə başçısını itirməyə görə əmək pensiyası hüququ yaranan pensiyaçılara da şamil ediləcəkdir.

Avtomatlaşdırılmış pensiya təyinatı sistemi Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarında fərdi uçot sektorları tərəfindən işlənmiş fərdi uçot məlumatları əsasında internet üzərindən aparılır və bu sistem vasitəsilə, ümumilikdə, 287 nəfərə yaşa görə əmək pensiyası təyin olunmuşdur.

*– Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsində neçə elektron xidmət fəaliyyət göstərir?*

– Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri təşkil olunmuş, lokal şəbəkələr mərkəzi informasiya sisteminə birləşdiriləcək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılmış, əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılmış və informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, demək olar ki, fondun bütün sahələri avtomatlaşdırılmışdır.

"Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinin yaradılması məcburi dövlət sosial sığortahaqqı ödəyicilərinin məcburi dövlət sosial sığorta haqlarını plastik bankomat kartları vasitəsilə və ya banklarda nağd qaydada onların ödənilməsinə, vətəndaşların fonda elektron müraciət etmələrinə və digər elektron xidmətlərin fəaliyyət göstərməsinə geniş imkanlar açmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinə 21 adda elektron xidmət inteqrə edilmişdir ki, hazırda bunlardan 16-sı istifadəyə verilmişdir. Digər elektron xidmətlərin də fəaliyyət göstərməsi sahəsində fond tərəfindən ardıcıl işlər görülür.

*– Nümunəvi şərait nümunəvi xidmət tələb edir.*

– Əlbəttə, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun kollektivi də öz işini günün tələbləri səviyyəsində qurmağa çalışır, 31090 nəfər yaşa görə, 14311 nəfər əlilliyə görə, 8895 nəfər isə ailə başçısını itirməyə görə əmək pensiyaçıları olmaqla, ümumilikdə, 54296 nəfər əmək pensiyaçısına xidmət göstərir ki, onların da pensiyaları plastik kartlarla bankomat vasitəsilə vaxtında ödənilir.

*– Müsahibə üçün sağ olun.*

✍ Kərəm HƏSƏNOV

***Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə muxtar respublikada qış mövsümündə faunanın mühafizə edilməsi və biotexniki tədbirlərin keçirilməsi üçün müvafiq tapşırıqlar verilib.***

# Biotexniki tədbirlərə başlanılıb



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, bu məqsədlə yay aylarından başlayaraq təsərrüfat ərazilərindən müxtəlif qida məhsulları, o cümlədən 2 min kiloqramdan çox biçilmiş ot preslənib, 1,5 min kiloqram buğda, arpa və 5 min kiloqram daşduz tədarük edilib. Eyni zamanda qış aylarında ərzaq anbarlarında istehlak üçün yararsız olan meyvə-tərəvəz və digər məhsulların da bu məqsədlə istifadəsi nəzərdə tutulub.

Məlumatda qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və tabeli idarələr tərəfindən hazırlanmış tədbirlər planına əsasən, dekabr-mart aylarında heyvanat aləminin kompleks yaşadığı ərazilərdə, xüsusi mühafizə olunan təbiət ərazilərində, yeni salınmış yaşıllıqlarda, o cümlədən miqrasiya dəhlizlərində biotexniki tədbirlər keçiriləcəkdir. 2016-cı ilin dekabr ayının əvvəllərindən başlayaraq dağlıq ərazilərə yağan qarın səviyyəsi 60 santimetrə qədər artıb ki, bu da biotexniki tədbirlərin keçirilməsinə zərurət yaradıb. Ötən həftə ərzində Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı və "Arpaçay" Dövlət Təbiət Yasaqlığı ərazilərində biotexniki tədbirlər keçirilib, ərazilərə tərəvəz məhsulları, buğda, arpa, qaba yem, daşduz və digər qida məhsulları paylanılıb. Həmin ərazilərə yaxın yaşayış məntəqələrində əhali ilə qanunsuz ov edilməsi hallarının qarşısının alınması məqsədilə maarifləndirici söhbətlər aparılıb, yoxlama-reydlər keçirilib. Heyvanat aləminin qorunması sahəsində onların qida ehtiyatının yaradılması mühüm və əhəmiyyətli tədbirlər olduğundan bu işlər qış fəsli boyunca tədbirlər planında nəzərdə tutulmuş təbiət ərazilərində davam etdiriləcəkdir.

Qeyd edək ki, müxtəlif mövsümlərdə havanın dəyişməsi, təbii olaraq, muxtar respublika ərazisində yaşayan heyvanat aləminə də öz təsirini göstərir. Xüsusilə qış aylarında ərazilərin qalın qarla örtülməsi qida təminatının azalmasına səbəb olur ki, bu da heyvanların başqa ərazilərə miqrasiyasına, nəsil artımının azalmasına səbəb olur. Yem çatışmazlığı nəticəsində bəzi gəmirici heyvanlar (dovşan, porsuq, çöl donuzu və sair) istər qış, istərsə də yaz aylarında yem tapa bilmədiklərindən yeni əkilmiş fidanların, tinglərin gövdələri ilə qidalanaraq onları sıradan çıxarırlar. Qeyd olunanlar nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən belə tədbirlər həyata keçirilir. Bu tədbirlər müəyyən edilmiş təbiət ərazilərinə müxtəlif qida məhsullarının paylanmasını əhatə edir. Qeyd edək ki, muxtar respublika ərazisindəki fauna ehtiyatlarının 25 faizdən çoxu Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı"na daxil edilib. Belə olan halda heyvanat aləminin qış fəslində qidaya olan tələbatının yaxşılaşdırılması məqsədilə keçirilən tədbirlərin əhəmiyyəti daha da artır.

✍ Səbuhi HƏSƏNOV

*Yeni təhsil ilinə qədəm qoymuşduq. Artıq 9-cu sinfin şagirdləri idik. “Hansı ixtisas qrupunu seçmisiniz?” – Yay tətilindən qayıtdığımız ilk dərs günü müəllimlərimizin salamdan sonra hamımıza ünvanladığı sual belə oldu.*

## Arzuların gerçəkləşməsinə gedən yolda bir il gecikmək könülsüz, bəhrəsiz sərf edilən 4 ildən daha yaxşıdır

Əminəm ki, abituriyentlər hər yerdə belə suallarla qarşılaşırlar. Hamı yuxarı siniflərdə oxuyan öz yaxınlarının, qohum-qonşusunun gələcəkdə hansı peşə sahibi olacağı ilə maraqlanır, verdikləri qərarın onlara uyğun olub-olmadığı haqqında fikir bildirir. Özünü dərk etməyə başlayandan hər kəs özünü gələcəkdə bir peşə sahibi kimi görür. Uşaq vaxtı kim məndən “gələcəkdə hansı peşə sahibi olmaq istəyirsən?” – deyə soruşurdusa, heç düşünmədən “həkim”, – deyə cavab verirdim. Zamanla həkimlik peşəsinə olan marağım öz yerini rəssamlığa, aşpazlığa, hətta kiçik yaşlarımdan kitabları çox sevdiyimdən kitabxanaçılığa verdi. Bu gün isə mən ali musiqi təhsili alıram. Sirlərini öyrənməkdə davam etdiyim peşəni sevirəm və bunun mənim tamamilə öz seçimim olmağına baxmayaraq, düşünürəm: yəqin peşə seçimində tez-tez dəyişikliklər etməyim mənim qərarsızlığımdan qaynaqlanıb. Lakin bəzi insanları tanıdıqca, onlarla ünsiyyətdə olduqca başa düşdüm ki, bu məsələdə mən heç də tək deyiləm. Mənim kimilər kifayət qədərdir. Çox az insan var ki, uşaqlıqdan “mən bu peşənin sahibi olacağam”, – deyib sonrakı illərdə öz qərarını dəyişmədən elə həmin peşənin də sahibi olsun. Bəs buna səbəb nədir? Görəsən, gənclər peşə seçimində tam müstəqildirlərmi, yoxsa ailədə onlara təzyiqlər göstərilir? Suallarımıza cavab axtarırıq.

İlk olaraq məhz elə özümdən başlayıram. Uşaqlıq illərində bütün uşaqlar kimi, mən də həkimlərdən çox qorxardım. Özüm qorxduğum üçün elə zənn edirdim ki, bu insanlardan hər kəs qorxur. Düşünürdüm ki, həkim olub, insanları ağrı-acıdan xilas edib yaxşı bir mütəxəssis kimi cəmiyyətdə özümə yer tutsam, deməli, kiminsə işinə yaramış olaram. Uşaq ağlımla şərəfli peşələrdən, sadəcə, həkim və müəllimlik barədə az-çox məlumatım vardı. Xalqa xidmət edən digər peşələrdən xəbərsiz idim. İllər bir-birini əvəzlədikcə, bu peşələr haqqında da məlumatlandıqdan sonra başa düşdüm ki, yox, bu xına o xınadan deyil. Peşə seçimi başqa qərarlara bənzəməz.

Düzgün peşə və ixtisas seçimi sağlam gələcəyə doğru atılan ilkin və ən vacib addımdır. Buna görə də onun seçiminə olduqca həssaslıqla yanaşmalı, son dərəcə düzgün qərar verməyə çalışmalıyıq. Ən əsası da kənardakı təzyiqlərə fikir vermədən özümüz öz istəyimizə uyğun olaraq seçməliyik. Mən belə də etdim. Ailədə ixtisas seçimimə qarşı müdaxilələrə baxmayaraq, sevdiyim sahəni seçdim. Yəni bu günə də nəzər salanda özümü olmaq istədiyim yerdə görürəm ki, bu da mənə xüsusi bir zövq verir. Mən öz-özlüyümdə xəyallarımın arxasınca qaçıb onu gerçəkləşdirə bilən bir insan obrazı yaratmağı bacarmışdım. Bəs digərləri necə, bacara biliblərmi bunu?

Həmsöhbət olduğum Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Musiqişünaslıq ixtisası üzrə üçüncü kurs tələbəsi İnci Məmmədzadə suallarımı belə cavablandırdı:

– Atam musiqiçidir. Uşaqlıqdan musiqi aurasında böyüdüyümüzdən istər məndə, istərsə də bacımda bu sənətə xüsusi bir həvəs vardı. Sonrakı illərdə hər ikimiz uşaq musiqi məktəbində təhsil almağa başladıq. Təhsil illərində müəllimlərimiz bizim çalışqanlığımızdan həmişə razılıq edər, bunu valideynlərimizə də çatdırardı. Onu da başa düşürdük ki, həvəslə yanaşı, eyni zamanda bizim istedad və bacarığımız da var. Ailədə ixtisas seçimində bizə sərbəst seçimetmə şansı da verilmişdi, biz ikimiz də könüllü olaraq bu sahədə təhsilimizi davam etdirməyə qərar verdik. Seçimimizdə yanıldığımızı düşünmürük. Çünki biz bu ixtisası sevərək seçmişik və bilirik ki, yaradıcılıq tələb edən incəsənət sahəsində həvəs və sevgi olmadan irəli getmək mümkün deyil.

İnci ilə söhbətdən aydın oldu ki, o, sevərək bu ixtisası seçib, bəs başqaları? Elə həmin qrupda təhsil alan digər bir tələbə – Ülviyyə Əhmədova isə fərqli fikirlər səsləndirir:

– Mən də musiqiçi ailəsində böyümüşəm. Atam musiqiçidir. Qardaşım da atamın yolunu davam etdirir. Musiqini sevməyimə, hətta o sahədə təhsil almağıma da baxmayaraq, bu peşənin sahibi olmağı düşünmürdüm. Başqa ixtisasa marağım var idi. Ali məktəblərə qəbul imtahanlarında göstərdiyim nəticə imkan vermədi ki, mən xəyallarımı bəzəyən o ixtisas üzrə təhsil alım. Əslində, hazırlaşıb növbəti il imtahan verməyi düşündüm, lakin ailəm məni musiqiyə yönəltməyə çalışdı, onların istəyinə qarşı çıxmayıb bu ixtisas üzrə qabiliyyət imtahanlarında iştirak etməyə razılıq verdim. Bu gün gələcəyin musiqi müəllimi kimi yetişdirilirəm. Ali məktəbi bitirdikdən sonra mən bir pedaqoq kimi musiqiçi yetişdirəcəyəm. Buna görə də həvəslə oxuyur, bilmədiklərimi öyrənməyə çalışıram.

İki müsahibimdən fərqli olaraq həmsöhbət olduğum digər tələbə Zəhra Qasımova isə baxmayaraq ki, bu ixtisasda təhsil alır, gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəmədiyini bildirir. Bunun səbəbini soruşduqda isə “mən bu ixtisasın adamı deyiləm”, – deyib söhbəti sonlandırır.

İncəsənət fakültəsinin Rəssamlıq ixtisası üzrə 3-cü kurs tələbəsi Elçin Əsgərov isə deyir:

– Özümü dərk edəndən bəri kağız və rəngli qələmlər əlimdən yerə düşmürdü. Rəssamlığa olan həvəsim getdikcə daha da artırdı. Ailəm də məni dəstəkləyirdi. Onların etimadını doğrultdum. Ailəmin mənəvi dəstəyi olmadan bu işlərin öhdəsindən gələ bilməzdim. Buna görə də ixtisas seçimində ailələr övladlarına dəstək olmalıdırlar.

Bir fakültədən bu qədər həmsöhbət kifayət edər, – deyə düşünüb yol alırıq digər fakültələrdən birinə.

Memarlıq ixtisası üzrə 3-cü kurs tələbəsi Anar Sadiqov deyir ki, ixtisasımı çox sevirəm. Ailənin tək övladı olduğumdan ailə üzvlərim bütün xəyallarını mənim üzərimdə gerçəkləşdirməyə çox həvəsli olublar. Bilirəm ki, öz istəyimlə seçməsəm də, bir də gözümü açacaqdım ki, Memarlıq ixtisasının tələbəsiyəm. Onlardan qabağa düşüb özüm gələcəkdə bu peşənin sahibi olmaq istədiyimi dedim. Öz çalışqanlığım ilə bu sahədə artıq uğurlar qazanmağa başlamışam.

Həmsöhbətlərimin bir çoxu oxuduğu ixtisas üzrə işləmək fikrində olmadığını vurğuladı. Adlarının çəkilməyini istəməyən tələbələr, sadəcə, ali təhsil diplomunu əldə etməyin xatirinə burada olduqlarını bildirdilər. Bir az sərt şəkildə desək, demək olar ki, Hüquqşünaslıq, İdarəetmə, İqtisadiyyat, Beynəlxalq münasibətlər, Tibb və sair kimi ixtisasların tələbələri istisna olmaqla, digər ixtisaslarda təhsil alanların çoxu bu cür düşündüklərini gizlətmədilər. Öyrəndikləri ixtisasları gələcəkdə peşə olaraq davam etdirmək istəyənlərin də çoxundan bizi təəccübləndirən cavablar aldıq.

İstəmədiyi bir ixtisasın məzunu olmaq, diplom almaq, işləməmək nə dərəcədə düzgündür, deyə bilmərəm, amma diplom xatirinə təhsil alanların sayı get-gedə artmaqdadır. Hər hansı bir universitetdə, texnikumda təhsil alırıqsa, orada bizə böyük bir kollektiv xidmət göstərir, dövlət tərəfindən hər bir tələbəyə görə həmin müəssisəyə vəsait ayrılır. Deməli, bu işdə məsuliyyət daşıyan insanların hamısı öz üzərinə düşən öhdəliyi yerinə yetirmiş olur, bir tək səbəbkarlardan başqa. Səbəbkarlar isə ixtisaslaşdıqları sahə üzrə çalışaraq xalqa xidmət etməklə öz öhdəliklərini yerinə yetirə bilərlər.

***Bu məsələdə gənclərdən çox övladlarını özlərinin istədikləri ixtisasa məcburi şəkildə yönəldən valideynləri qınamaq lazımdır. Bəziləri istədikləri ixtisasın tələbəsi adını qazana bilməsələr də, tələbə adından məhrum olmamaq üçün balları çatan sahəni könülsüz olaraq seçirlər. Bu zaman valideynlər övladlarına başa salmalıdırlar ki, bir az da çalışaraq növbəti il qəbul imtahanında istədikləri nəticəni əldə edə bilərlər. Arzuların gerçəkləşməsinə gedən yolda bir il gecikmək könülsüz, bəhrəsiz sərf edilən 4 ildən daha yaxşıdır.***

**Fatma BABAYEVA**

## Kəngərli Rayon Mədəniyyət Evində “Arılar arasında” tamaşası nümayiş etdirilib



*Kəngərli Rayon Mədəniyyət Evində Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnələşdirilən yazıçı-dramaturq Elçin Əfəndiyevin “Arılar arasında” əsəri əsasında hazırlanan eyniadlı tamaşa nümayiş etdirilib.*

Xalq artisti Kamran Quliyevin quruluş verdiyi tamaşanın rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur. Xalq artisti Həsən Ağasoy, Əməkdar artist Əbülfəz İmanov, aktyorlardan Zülfiyyə Zeynalova, Zəminə Baxşəliyeva, Səyyad Məmmədov, Şölə Novruzbəyli, Nurbəniz Niftəliyeva və Anar Eyvazov öz ifaları ilə uğurlu səhnə həllinə nail olublar.

“Arılar arasında” pyesində kənd və şəhər, eləcə də nəsillər arasında uzaqlaşma öz əksini tapıb. Tamaşada müəllif bütün problemlərin müqabilində arı ailəsini nümunə kimi götürür. Göstərilir ki, istər cəmiyyətdə, istərsə də ailədə hər bir fərd ona həvalə edilmiş işin öhdəsindən gəlməyə, nizam-intizamlı olmağa, qarşıya çıxan çətinliyi dəf etməyə çalışmalı, bunun üçün iradə nümayiş etdirməlidir. Tamaşada təbiətə və insanlara sevgi, gənclərə yüksək amallar uğrunda yaşamaq tövsiyə olunur.

Qeyd edək ki, bu il noyabrın 26-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ilk dəfə təqdim edilən “Arılar arasında” tamaşasının muxtar respublikanın digər bölgələrində də nümayişi nəzərdə tutulur.

## Növbəti test-sınaq imtahanları olub



Muxtar respublikamızda yaradılmış yüksək təhsil mühiti nəticəsində ilbəil uğurlu nəticələrə nail olunur. Bu nəticələrin daha da yüksəldilməsi, şagirdlərin elmlərə marağının artırılması, onlar arasında sağlam rəqabətin formalaşdırılması məqsədilə ilboyu test-sınaq imtahanları təşkil edilir və müəyyən olunan nöqsanların aradan qaldırılması üçün nəticələrin müzakirəsi keçirilir. Ənənəvi olaraq təşkil edilən belə imtahanlardan biri də dekabrın 17-də muxtar respublikanın ümumtəhsil məktəblərinin IV-VIII sinif şagirdləri arasında keçirilib. Əvvəlki illərdən fərqli olaraq bu il imtahanlarda IV sinif şagirdləri də iştirak ediblər. Məqsəd həmin şagirdlərə kiçik yaşlarından buraxılış və qəbul imtahanlarının keçirilmə qaydalarını aşılamaqdır.

İmtahanlar bütün ümumtəhsil məktəblərində səhər saat $10^{00}$-da başlayıb və iki saat yarım davam edib. Şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün hərtərəfli şərait yaradılıb. Məlumat üçün bildirək ki, test-sınaq imtahanında şagirdlərə iş nömrəsi verilib və kodlaşma aparılıb. Həmin iş nömrəsi vasitəsilə şagirdlər imtahanın nəticələrini *www.istedad21.com* saytından öyrənə bilərlər.

**Xəbərlər şöbəsi**

## Boks birinciliyi keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə yeniyetmələr arasında boks üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***



Naxçıvan Muxtar Respublikası Boks Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbinin birgə təşkilatçılığı ilə keçirilən birincilik Beynəlxalq Boks Federasiyasının qaydalarına əsasən təşkil edilib.

9 çəki dərəcəsində 30-a yaxın dəri əlcək sahibi öz qüvvəsini sınayıb. Gərgin mübarizə şəraitində keçən yarışda Nemət Yusifli, Ümid Abbasov, Murad Nağıyev, Ayxan Quliyev, Ayxan Süleymanov, Yusif Əliyev, Kamran Allahverdiyev, Əbülfəz Xəlilli və Teymur Hacızadə müvafiq olaraq 35, 44, 46, 48, 50, 52, 57, 63 və 70 kiloqram çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvanlı fotoqrafın fotoşəkilləri Bakıda sərgilənib



***Bu günlərdə Bakıda “1969” qalereyasında gənc Azərbaycan fotoqraflarının “İslam dünyası və Azərbaycanda multikulturalizm dəyərləri” mövzusunda sərgisi açılıb.***

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Fotoqraflar Birliyinin birgə layihəsi kimi təşkil olunan sərgi “Multikulturalizm ili” çərçivəsində keçirilir. Sərgidə naxçıvanlı gənc fotoqraf, “Şərq qapısı” qəzetinin əməkdaşı Əli Xudiyevin də müxtəlif dövrlərdə bu mövzuda çəkdiyi fotoşəkillər nümayiş etdirilib.

Sərgi təşkilatçılarının verdiyi məlumata görə, burada iştirak etmək üçün əvvəlcədən müsabiqə elan edilib. Müsabiqəyə təqdim olunmuş 300-ə yaxın fotoşəkildən 50-si yüksəkixtisaslı münsiflər heyəti tərəfindən seçilərək sərgilənmək üçün tövsiyə olunub. Azərbaycan xalqının malik olduğu tolerantlıq, digər xalqların və dinlərin nümayəndələrinə qarşı münasibətdə hörmət sərgilənən fotoşəkillərin əsas motivini təşkil edib. Qeyd edək ki, sərgidə fotoqraf Əli Xudiyevlə yanaşı, daha 21 peşəkar fotoqrafın çəkdiyi şəkillər nümayiş olunub.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 956